**Flora Xəlilzadə – 70**

# Qələmlə qazanılan nüfuz və şöhrət

**Dünən Azərbaycan Mətbuat Şurasında tanınmış qələm sahibi, Əməkdar jurnalist Flora Xəlilzadənin anadan olmasının 70 illiyi münasibətilə qurumun Ahıl Jurnalistlər Məclisinin təşkilatçılığı ilə toplantı keçirildi.**




Yubiley mərasimini giriş sözü ilə açan AMŞ sədri Rəşad Məcid ömrünün və yaradıcılığının yetkinlik yaşına çatmış yazıçı-publisisti səmimi təbrik edərək onun yarım əsri əhatə edən fəal və səmərəli yaradıcılığına nəzər saldı. O bildirdi ki, 1977-ci ildə BDU-nun jurnalistika fakültəsini bitirmiş həmkarımız sonrakı illərdə "Azərbaycan təbiəti" və "Azərbaycan qadını" jurnallarında, "Azərbaycan müəllimi" və "Azərbaycan" qəzetlərində müxtəlif vəzifələrdə çalışıb. Flora xanım uzun müddət İctimai Televiziyada müəllif layihəsi rəhbəri, "Yadigarlar" verilişinin aparıcısı olub.

Azərbaycan Jurnalistlər və Yazıçılar Birliklərinin üzvü olan istedadlı, yurdsevər və çalışqan yazar hazırda Azərbaycan Televiziyası (AzTV) ədəbi-dram verilişləri baş redaksiyasını baş redaktoru, bədii şura üzvüdür. Çoxsaylı, müxtəlif janrlı və aktual mövzulu yazının müəllifinin 20-dək publisistik kitabı işıq üzü görüb. Bütün bunlar ona geniş oxucu-tamaşaçı dairəsi, populyarlıq və yaradıcılıq nüfuzu qazandırıb. Flora Xəlilzadənin çoxillik səmərəli fəaliyyəti və milli jurnalistikamızın inkişafında xidmətlərini dövlətimiz də yüksək qiymətləndirib. O, "Əməkdar jurnalist" fəxri adına və "Şöhrət" ordeninə layiq görülüb.

Məclisdə çıxış edən Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin kafedra müdiri, professor Cahangir Məmmədli, Əməkdar incəsənət xadimi, professor İlham Rəhimli, Medianın İnkişafı Agentliyinin əməkdaşı Pərvanə İbrahimova, Türkiyə İnternet Media Birliyinin rəhbəri Süleyman Basa, AMŞ Ahıl Jurnalistlər Məclisinin sədri, "Xalq qəzeti"nin baş redaktor müavini Tahir Aydınoğlu, ədəbiyyatşünaslar – Əsəd Cahangir və Esmira Fuad, şairə Kəmalə Abıyeva, yazıçı Yunus Oğuz, BDU jurnalistika fakültəsinin dosenti Qərənfil Dünyaminqızı, AMŞ İdarə Heyətinin üzvləri – ATV prezidentinin müşaviri Səadət Məmmədova, "Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı, jurnalist Aida Eyvazlı və AzTV "Mədəniyyət" kanalının direktor müavini Bəhruz Niftəliyev yubilyarı səmimi təbrik etdilər, onun milli jurnalistikamıza, bütövlükdə, milli-mənəvi dəyərlər sisteminə xidmətlərindən, peşəkar qələm sahibi kimi samballı və məhsuldar yaradıcılığından, fəal ziyalı mövqeyindən ətraflı söz açdılar.

Məclisdə AMŞ sədri Rəşad Məcid yubilyara qurumun yubiley plaketini təqdim etdi, həmkarları onu gül dəstələri və xatirə hədiyyələri ilə təbrik etdilər.

Sonda Flora Xəlilzadə iştirakçılara, keçdiyi ömür yoluna və yaradıcılığına verilən dəyərə, səmimi təbriklərə görə təşəkkürünü bildirdi.

**T.RÜSTƏMLİ**
**XQ**